**UOT 101. 01**
**https://doi.org/10.59849/2710-0820.2023.1.228**

**ŞÖLƏT ZEYNALOV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Davamlı inkişafın fəlsəfəsi və sosiologiyası şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan*
*sholet@mail.ru*
*ORCID: 0000–0003–2509–1159*

# MODERN CƏMİYYƏTDƏ BİLİK, KOMMUNİKASİA VƏ DİALOQ PROBLEMİ: MÜHARİBƏ VƏ SOSİAL ZİDDİYYƏTLƏR

***Açar sözlər:*** *Modern cəmiyyət, "gündəlikdə dayanan məsələlər", sosial ziddiyyətlər, müharibə, bilik, kommunikasiya.*

**Giriş:** Mütəxəssislərin qənaətinə görə, hazırda "modern cəmiyyətin" münasibətlər sistemində baş verən müxtəlif ziddiyyətlərin "həllindən" nəzəri anlamda bəhs etmək mümkün olsa da onların sosial, siyasi, humanitar, mədəni, etnik, milli, dini və s. anlamda praktiki olaraq aradan qaldırılması məsələsi ya mümkün deyildir, ya da ki, ciddi problematikdir. Bu onu sübut edir ki, elm, bilik, texniki tərəqqi, informasiya resurslarının və sosial münasibətlər sisteminin dinamik inkişafına baxmayaraq, modernin cəmiyyət kimi xarakterizə olunan müasir intellektual cəmiyyətlərdə tarixən mövcud olmuş problemlər genişlənməklə yanaşı, o, öz zəruri aktuallığını "gündəlikdə dayanan məsələ" kimi qorumaqdadır. Bu fakt həm də onu təsdiq edir ki, müasir "modern cəmiyyətində" problemlərin həlli biliyin, elmin, rasional təfəkkürün yaratdığı imkanlar çərçivəsində və yalnız mədəni kommunikasiyada, tarixi dinamika və tarixi yaddaşın çoxaspektli interpretasiyası kontekstdə baş tuta bilər. Məhz, bu səbəbdən də "alternativlərdən" bəhs olunarkən ciddi konfrontasiyaların, münaqişə və müharibələrin də istisna olunmadığı faktı həmişə "gündəlikdədir". Fakt odur ki, yüksək elmi-texniki tərəqqinin və süni zəka probleminin aktual olduğu bir dövürdə İnsan və planetar təfəkkür – modern cəmiyyətdə bütövlükdə, mədəniyyət və mədəni təsisatlar bir növ müharibələri, dağıdıcı tendensiyaları, sosial, siyasi, humanitar problemləri "ləğv etmək" hüququnu, birmənalı şəkildə, yer üzündə həyata keçirə bilmirlər. Yəni burada söhbət ondan gedir ki, filosofların qeyd etdiyi kimi mədəniyyətin özü modern cəmiyyətdə kommunikasiya prosesi hesab olunsa da, maraqların təmin olunması və mədəni identiklərin təsbiti anlamına gəldikdə, heç də həmişə mədəniyyət ünsiyyət kimi qavranılmır. Bu həm də onu sübut edir ki, söhbət bəşəri dəyərlərə apelyasiyadan gedərkən heç də bütün identikliklər özünütəyin mövzusunda dialoq aparmağa qabil deyillər [4]. Qeyd olunanlar göstərir ki, müasir ziddiyyətlərin həlli istiqamətində konkrekt addımlar məhz "gündəlikdə dayanan" həyati vacib problem kimi fəlsəfi problematikanın qarşısındadır. Bu isə problemin aktuallığını şərtləndirir.

**Modern cəmiyyətin "gündəlikdə dayanan" problemləri.** XX əsr Qərb nəzəri fikrində müasir cəmiyyətin çoxaspektli problemlərindən bəhs olunarkən fundamental bir fikir formalaşdı: müasir "modern cəmiyyətin" münasibətlər sistemində ciddi ziddiyyətlər mövcuddur, onların "həlli" və mənalandırılması hazırda müasir sivilizasiyanın "gündəliyində" dayanan fundamental problemdir: onların həlli zamanın tələbi, sivilizasiyanın taleyidir, əks təqdirdə nikbinlik üçün heç bir ciddi əsaslardan bəhs etmək mümkün deyildir.

Lakin bütün bunlara baxmayaraq hazırda bir çox məqamlarda cəmiyyətlər, təsisatlar, fərdlər, mədəniyyət təmsilçiləri, elm adamları və mütəxəssislər etik dəyərlərə, norma, qanunlar və mədəniyyət amilinə istinadən – dialoq

fəlsəfəsi və dialoji təfəkkürdən çıxış edərək, istər fərdlər, cəmiyyət və dövlətlər arasında, istərsə də mədəniyyətlər, dinlər və sivilizasiyalar arasında yüksək qarşılıqlı əlaqələrdən, insani, mənəv, iqtisadi, sosial, etik və s. münasibətlərdən geniş şəkildə bəhs edirlər. Fakt budur ki, siyasi, kulturoloji, sosial və s. ədəbiyyatda, hətta KİV vasitələrində və mədəniyyət çərçivəsi altında keçirilən böyük toplantı, konfrans və müxtəlif tribunalarda bu barədə geniş bəhs olunmaqdadır. Əksər məqamlarda bu polemika, diskurs, dialoq və kommunikativ vasitələrin çoxaspektli olmasını mütəxəssislər haqlı olaraq elmi-texniki tərəqqi və "modern" cəmiyyətin mədəniyyət kontekstində çıxış nöqtələri axtarmaları ilə bağlayırlar və həqiqətən də, burada parodoksal səslənsə də, bir növ idrakdan gələn "mədəni dialoqların" sürəkli ahəngi də mövcuddur. Bu tezisi nəzəri anlamda onunla izah etmək mümkündür ki, məhz "Mədəniyyətlərin saysız-hesabsız təyinləri mövcuddur. Məsələn, P. L. Berger "Çoxüzlü qloballaşma, müasir dünyada mədəni müxtəliflik"[2004] kitabının girişində mədəniyyəti adi insanların inancları, dəyərləri və gündəlik həyat tərzi kimi təyin etmişdir" [4, s. 85]. Lakin məsələ ondadır ki, həm də "bu təyinetmədə müxtəlif mədəniyyətlərin münasibətləri nəzərdə alınmır. Hərçənd bu təmaslarda həmişə [bəzən potensial olaraq] dialoq məqamı iştirak edir" [4, s. 85].

Avstriya əsilli protestant ilahiyyatçısı Amerika sosioloqu Peter Lüdviq Berger [1929-2017] özünün bilik sosiologiyası, din sosiologiyası, modernləşmənin tədqiqi və sosioloji nəzəriyyə istiqamətində apardığı elmi araşdırmalarında müasir cəmiyyətin moderinitə problemləri, mədəniyyət, qlobal tendensiya və onların törədə biləcəyi "nikbin" və "bədbin" perspektivlər haqqda "modern cəmiyyətin" "gündəlikdə dayanan" problemi kimi ətraflı çıxışlar etmiş və problemin sosial-fəlsəfi mahiyyətini ətraflı qabartmışdır. Həmçinin, P. L. Bergerin və Tomas Lukmann birgə yazdığı bilik sosiologiyası istiqamətdə təsirli mətnlərdən hesab edilən "Reallığın sosial konstruksiyası: Bilik sosiologiyasında bir traktat" adlı [Nyu-York, 1966] əsərdə modern dünyada sosial konstruktivizmin üstünlüklərindən, mədəniyyətin sosiologiyası problemlərindən geniş bəhs olunmuşdur. Anlaşılan budur ki, modern tpolumda cəmiyyətin, dövlətlərin, modern dünyanın inkişaf tendensiyası bilavasitə bilik, sosial nəzəriyyələr "moderinitənin atılışı", kommunikativ refleksiyayla bağlı olan zəruri hadisədir. Qeyd olunanlar təsdiq edir ki, müasir problemlərin həlli biliyin, elmin və rasional təfəkkürün yaratdığı imkanlar çərçivəsində və yalnız mədəni kommunikasiya və mədəni münadilələrdə həll oluna bilər və burada alternativlərdən bəhs olunarkən məhz ciddi konfrontasiyaların, münaqişə və müharibələrin də istisna olunmadığı faktı ilə qarşılaşa bilirik. Amma, həm də söhbət ondan gedir ki, girişdə qeyd etdiyimiz kimi mədəniyyətin özü kommunikasiya prosesi olsa da mədəni identiklərin təsbiti anlamına gəldikdə "heç də həmişə mədəniyyət ünsiyyət kimi qavranılmır və heç də hamı özünütəyin mövzusunda dialoq aparmağa qabil deyillər" [4, s. 85]. Tezislərdən aydın şəkildə görürük ki, dialoqun, ünsiyyətin pozulması halı bilikli və "modern cəmiyyətin" spesfik və böhranlı xüsusiyyətidir, parodoks ondadır ki, bu ziddiyyətlərin "həlli" də, – qarşısının alınması da bilavasitə məhz yenə də dialoq probleminə apelyasiyayla bağılıdır. Bütün bunlar göstərir ki, tarixi proses – K. Yaspersin qeyd etdiyi kimi, "insanın təbiətdən ayrılma" [6] prosesində, fikrimizcə, insan həm də minilliklərin dəyinliyindən gələn təbii əsaslarını sual altına qoymaqla yanaşı [tarixi yaddaşın pozitiv nəticələrini unutmaqla] onun mədəni mübadilə nəticəsində əldə etdiyi uğurlar, sivilizasiya, dil, din, texnika yaradıcılıq elementləri təbiətlə harmoniyanı deyil, ondan uzaqlaşmanı və insanın bir-birinə qarşı dayanmasını da "moderin" formatında daha da qapartmaqdadır. Deməli, "bu halda mədəniyyət əşyaların, məhsulların, incəsənət əsərlərinin istehsalı və ya davranış nümunələrinin və sxemlərinin qəbulu kimi anlaşılır" [4, s. 85] ki, bu da moderinitənin faktiki olaraq "nəzəriyyə və ideya" problemidir, hansı ki, müharibə, münaqişə, digər konfrontasiyalar da bu ziddiyyətlərdən doğur və dövlətlər arasında münaqişə və müharibələrin də qarşısının alınmasında "moderin təfəkkür" aciz duruma düşür.

Müasir Qərb nəzəri fikrinin avanqardlarından hesab edilən Ziqmund Bauman özünün " Modernlik və mübhəmlik" əsərində qeyd edir: "bütün moderin çağ boyunca, fəlsəfəçilərin yasayıcı - qanunyaradıcı ağlı, dövlətin maddi tətbiqatları ilə ahəng içində oldu" [1, s. 37]. Mo-

derin cəmiyyətin əsas xüsusiyyətlərindən biri budur ki, "modern dövlət, dominantlığındakı insanları zəkanın qanunları ilə həmahəng, düzənli bir topluma uyğunlaşdurmaq üçün onları əhatəli bir şəkildə incələməyi, missiya etmiş, müqəddəs bir inqilab gücü olaraq doğdu" [1, s. 37]. Bütün bunlar faktdır və bütövlükdə bu xüsusiyyətlər nəzərə alınarkən təsadüfi deyildir ki, filosoflar müasir cəmiyyəti elmi-texniki tərəqqi cəmiyyəti və ya "modern" sivilizasiya kimi xarakterizə etsələr də, həm də onun tendensiyasından ciddi tənqidlərini də əsirgəmirlər. Filosofların, sosioloqlar və digər mütəxəssislərin nəzəri mülahizələrinə görə vaxtilə, elmi-texniki tərəqqinin yaratdığı yeni tendensiya nəticəsində "rasional bir şəkildə formalaşdırılan toplum, modern dövlətin son məqsədi elan edilmişdi" [1, s. 37]. Modern dövləti həm də sözün geniş anlamında "bağban bir dövlətə bənzətmək olar, onun ehtiva etdiyi duruş bağbancılıq –sahiblənmiş duruş" [1, s. 37] kimi xarakterizə edilə bilər. Məhz bu və ya digər səbəblərdən, ola bilər ki, modern cəmiyyət təkrar-təkrar tarixən "son məqsədə" çatmaq yolunda ciddi ziddiyyətlərdən, itki və mübarizələrdən, münaqişə və müharibələrdən də sığortalana bimir. Yəni söhbət ondan gedir ki, müasir sivilizasiya humanitar və mədəni təfəkkürdə humanist sivilizasiya kimi təqdim olunsa da, bu, əksər filosoflar tərəfindən, bəzən, bağbanın özünü "tarla sahibi" [1] kimi öz tarlasındakı "məhsuldan" – bütün resurslarından ixtiyari istifadəsinin hüququnu da preroqotivlər kimi "mənimsədiyi" qeyd edilir. Bu isə əlbəttə problematikanın daha dərində olmasını şəksiz ortaya qoyur: mədəniyyət və sivilizasiyanın böhranı onun təbiətindən gəlir; müasir insan yaratdıqlarının təbiətinə müdaxilə etmək iqtidarında deyildir və s. Məsələ ondadır ki, "kültür termininin metoforik kökəni indiyə qədər yetərincə dəqiqləşsə də" [1, s. 149]. bu tətbiqatı – eyni şeyi, biz dövlətlərin, sivilizasiya və cəmiyyətlərin geniş anlamda həyataında [təhlükəsizlik "çətiri" kimi] kommunikativ əlaqələrinə və münasibətlər sisteminə tətbiq edə bilmirik. Filosoflar – bu "kommunikativ" mahiyyətli prosesin anti-kommunikasiyaya çevrilməsinin səbəblərindən onun ontoloji, idraki, sosial, siyasi və s. genologiyasından, yaxud problemin fəlsəfi mahiyyətindən bəhs edən filosoflar birmənalı şəkildə tənqidi təfəkkürdən çıxış edərək müasirliyin mədəni "sivilizasion atılışı" ilə əksər məqamlarda razılaşmırlar və s. Bunun əsas səbəblərindən biri müasir münaqişələr, müharibələr və etnik, milli, dini, coğrafi və s. toqquşmalardır ki, şübhəsiz bu anlamda sağlam təfəkkür tərəfindən "nonses" olunmalarına baxmayaraq nəzəriyyəşilər haqlıdırlar və görünən odur ki, böyük ümid və qayğıdan[1] bəhs olunmasına baxmayaraq "modern cəmiyyətdə" bir növ müharibə, münaqişə və seriya ziddiyyətlər hazırda müasir insanın taleyinə "yazılmışdır".

**Moderin cəmiyətdə ünsiyyət və kamillik problemi:** Tarixi praktikaya müraciət edərkən istənilən müharibənin, münaqişə və qarşılıqlı nifrətin də sonda hansısa yumuşalmalarla nəticələndiyi faktı da inkar olunmur və bu, ziddiyyətlər "əbədi nifrət" ya "rerursların" bitdiyi səbəbindən, ya da ki, insanın psixoloji reaksiyaları fonunda qarşı tərəflərlə "zor" və ya "xoş"la əlaqə və münasibətlərin "sinergetik" tənzimlənməsi ilə nəticələnir. Əlbəttə, biz bilirik ki, bunun ciddi tarixi sosial, iqtisadi, psixoloji, nəhəng səbəbləri vardır, həm də ən əsas səbəbləri ondadır ki, insan təbiətən dioloji mahiyyətə malikdir. Bunu əksər məqamlarda istər dinin fəlsəfəsi, istər fəlsəfə və ictimai humanitar elmlərlə məşğul olan mütəxəssislər tarixən vurğulamışlar. Fakt odur ki, İnsan ünsiyyətdə mövcuddur. Bu məsələni biz, eyni zamanda, fərdilikdən çıxararaq sosial, etnik, milli, coğrafi, tarixi, sivilizasion problemlərin həllinə də şamil edə bilərik. Fəlsəfə tarixində, xüsusilə, qərb nəzəri fikrində bu kimi məsələlər, sosal, siyasi, iqtisadi, coğrafi, hətta fenomenologi, metafizik və idraki problem kimi uzun müddət nəzəri interpretasiyaların əsas obyekt və predmeti kimi diqqət mərkəzində olunmuşdur. Məsələn, fəlsəfdən geniş anlamda söhbət gedərkən, alman filosofu İ.Kant hesab edirdi ki, fəlsəfə insan olmağın paradiqmasıdır, lakin uzun əsrlərin təcrübəsindən çıxış edərək, qeyd edə bilərik ki, nə fəlsəfənin, nə dinin, nə də ki elmin əsrlərlə irəli sürdüyü dialoji təfəkkür paradiqmasını geniş kütlələr arasında, o cümlədən ideoloji, siyasi və s. dini təsisatlar arasında birmənalı şəkildə tətbiq etmək mümkün deyildir. Ona görə də, əgər modern cəmiyyətin biz problemindən bəhs edərkən "M. Fukonun təbirincə desək, "gündəlikdə duran məsələləri", mədəniyyətlərin dialoqunun prosesə çevrildiyi və dünya şəbəkəsini də özü

[1] M. Haydegger

ilə məşğul etdiyi "gündəlik məsələləri anlamalıyıq". Və məsələ onda deyil ki, bu prosesi fərqlilikləri qorumağa və ya onları əritməyə yardıım edir" [4, s. 95]. Problem ondadır ki, insan daima keçmişə boylanır. Keçmişdə mövcud olmuş hər bir şey – əşya, predmet, dəyərlər, dünyagörüş və s. bilavasitə "modern cəmiyyətdə" də öz təsirlərini qorumaqdadır. Z. Freydin qeyd etdiyi kimi, "keçmişdə yaşamış qədim insanın hansı inkişaf yolu keçməsi ilə bağlı məlumatları, biz onun bu günə gəlib çıxan predmetlərindən və avadanlıqlarından, yaratdığı incəsənət örnəklərindən, dinlərindən və bu günümüzə birbaşa və ya dolayısı ilə çatmış dünyagörüşündən, yəni müxtəlif əfsanələr, miflər və nağıllarından, həmçinin adət və mənəviyyatımızda hələ də izlərini saxlayan düşüncə tərzinin qalıqlarından öyrənirik". [2, s.12] Tarix isə bizə heç də həmişə kommunikasiyanı deyil, həm də antikommunikasiyanı, qarşılıqlı nifrəti, kin və küdurəti də təlqin edə bilir. Ola bilsin ki, bu, insan idrakının yanılması, yaxud predmetləri, proses və hadisələri müxtəlif bucaqlardan görməsiylə bağlıdır. Əksər məqamlarda "keçmişdən ayrıla bilməyən şüur"[4] tarix və insan idrakında ideologiyaların yaratdığı antikommunikativ refleksiyalar, barışmazlıq, nifrət, öz təsisatlarının müqəddəsliyinə inam, bir sözlə, hüquqi, təbii, etik və s. nihilizim və mifoloji keçmişə yönəlik preroqativlər, bir sözlə "insest qorxusu" [2, s. 12] qarşılıqlı harmoniya və sülhün yer üzündə bərqərar olunmasında ciddi əngəl olaraq çıxış edir. Yəni əksər məqamlarda insnalar, fərdlər öz maraq və məqsədlərinə ideya və ideologiyalarının irəli sürdükləri keçmişə yönəlik mifin, anlayışların yaratdıqları diqloqdan kənar mühitə "mexaniki" meyilləndiklərindən, hətta müharibələr, münaqişələr bitdikdən sonra belə qisasa, kinə meyilli olurlar, biz bunun səbəbini insan idrakında baş verən ontoloji, ekzistensial, psixoloji böhranla əlaqələndirə bilsək də, burada əsas yük – dini, siyasi, milli, etnik, coğrafi və s. şüurda, ideologiyalarda – tarixi a priroilərdə ehtiva olunur. Bu baxımdan bəzi dövlətlər, siyasi rejmlər aqressiv, bəziləri isə hümanitar təfəkkürlü olur: məsələn Ermənistan və Azərbaycan nümunəsində biz bunu əyani şəkildə görmüşük! Bu səbəbdən də məhz Azərbaycan son vasitə kimi aqressorun və terrorizmin dəf edilməsi işində güc amilinə istinad etdi və görünən budur ki, əgər bölgədə böyük sülh danışıqlar, dialoqlar vasitəsiylə baş tutmasa ədalətin və beynəlxalq nizamın bərpa olunması işində yenidən güc amilindən istifadə oluna bilər ki, bu da məhz "modern" sivilizasiyanın problemlərindəndir: dialoji təfəkkür və ünsiyyəti bütün xalqların həyatına eyni şəkildə tətbiq etmək mümkün deyildir və s.

Zira buna baxmayaraq modern cəmiyyətdə dialoq mədəniyyətinin formalaşması onun xalqlar, millətlər, etnoslar və şəxsiyyətlərarası kommunikasiyada oynadığı ontoloji vacib roldan bəhs edərkən müasir elmi texniki tərəqqi şəraitində indi bir çox məqamlarda mütəxəssislər, yüksək mədəni insan tipinin formalaşmasından bəhs edir və bunun yaxın yüzillərdə həyata keçməsinə böyük ümidlər bəsləyirlər. XVII əsr İspan mütəfəkkiri Baltasar Qrasian vaxtilə, özünün "Kamillik elmi" adlı əsərində qeyd edirdi ki, "indi artıq hər şey, ən çox da şəxsiyyət kamilləşib" [3, s. 7]. Problem həm də ondadır ki, müasir modern cəmiyyətdə əgər bilik və onun inkişafının insan şəxsiyyətinə təsirlərindən bəhs olunarkən mübağiləsiz qeyd etmək olar ki, – məsələ bilikdən və onun praktikada təbliğindən gedərkən – "indiki bir müdrikdən daha çox kamillik tələb olunur, nəinki keçmişdə yeddisindən" [3, s. 7]. Belə ki, şəxsiyyət və onun sivilizasiyanın formalaşmasında, "vaxtilə bütöv bir xalqla rəftarda lazım olduğundan daha çox məharət indi bir adamla rəftarda lazımdır" [3, s. 7]. Bu onu sübut edir ki, biliyi mütləqləşdirmək olmaz, bilik etik dəyərlər, humanizm və hüquq paradiqmasından təcrid olunarkən o, yer üzündə heç də humanizmi, etik dətyərləri, mədəniyyəti, kommunikasiyanı insani xoşbəxtliyi həyata keçirmək iqtidarında olmur. Psixoloqlar sübut edir ki, böyük İspan filosofu B. Qarsianın bu fikri ifadə etməsindən dörd əsr vaxt ötməsinə baxmayaraq, indi də bu fikir aktualdır və yaxud insanın həyatında elmi-texniki inqilabların və biliyin artmasıyla onunla rəftar da daha çox problematik xarakterli olmuşdur. Bu həm də onu təsdiq edir ki, insan varlığı indi bir çox məziyyətlərinə görə bilik, elm, kommunikasiya və s. mədəni əlaqələrinin formalaşmasına görə daha əlvrişli şəraitdədir. Lakin paradoks ondadır ki, hazırki inkişafın bir çox aspektlərinini fəlsəfi kontekstdən analiz edərkən görürük ki, indi insan bütün sahələrdə böhran epoxasına qədəm qoymuşdur; bununla da dialoq mədəniyyətinin formalaşmasında, istərsə də

sadə insanlararası kommunikasiyada, ciddi böhranla üzləşmişdir. Bu səbəbdən də modern cəmiyyyətdə müasir insanı hətta kommunikabelli deyil, antikommunikabelli insan kimi xarakterizə etmək daha məntiqi görünür. Bu onu göstərir ki, müasir mədəniyyətin özünün inkişafının tendensiyasında ciddi problem mövcudddur. Halbuki "xasiyyət və mədəniyyət [dialoqa meyllilik həm də insanın təbiətindən gəlir - Ş. Z.] insanın bütün məzəiyyətlərini əks etdirən iki dayaqdır" [3, s. 7]. Yəni modern cəmiyyətdə mədəniyyətin hazırda praktiki inkişafından bəhs edərkən – olsun ki, elə insanın şəxsiyyətinin inkişafında da baş verən problemlər göstərir ki, təkcə insanların biliyə yiyələnməsi, biliyin yaratdığı üstünlüklər fonunda iqtisadi, sıçrayışlar, təhsilin artması, bir sözlə, "diqloq mədəniyyətinin formalaşması" üçün yalnız mədəniyyət və sivilizasiyanın xarakteri bir-birini ayrılıqda tamamlaya bilmir; İnsanları "simvollar", "rəmzlər", "idollar", "tabular" və ideologiyalar daha çox cəlb edir nəyinki onların məzmunları. Halbuki, bizə tarixi prosesdən məlumdur ki, bütün inkişafların təməlində – sivilizasion intibahda atılış bilik və elmin, sosial dəyərlərin insan həyatına tətbiqindən başlamış, insan sosial, mənəvi, psixoloji və mədəni varlığa yüksəlmişdir. Yəni, əslində, söhbət həm də ondan gedir ki, bütün mədəniyyətlərin təməlində də bilik və sosial transformasiyalar dayanır. K. Marksın təbirincə desək, "əmək insanı primitiv varlıqdan insana çevirdiyi kimi" biliyin də məhz inkişafı, sosial təsisatların "moderinləşməsi" və genişlənməsi həm dialoq mədəniyyətinin inkişafına, həm də sosial insanın, sosial ədalət sisteminin, kommunikativ insan nəslinin, nizamın, hüququn və sivilizasiyanın da mövcudluğu üçün ciddi arqumentasiya olmuşdur. Baltasaq Qrasianın qeyd etdiyi kimi, "İnsan daha çox öyrəndikcə daha çox insan olur" [3, s. 7]; fakt odur ki, tarixi tendensiya sübut edir ki, istər modern cəmiyyətdə, istərsə də tarixin inkişaf tendensiyasında hətta qəbul olunmasa da "aqil adam qüdrətlidir" [3, s. 7]. Lakin indi təssüf ki, insandan daha çox texnika – insanın yaratdıqları, "simvollar", "idollar" və s. daha "aqil" görünürlər. Bir sözlə, analizlər sübut edir ki, indi bütün bu kimi yüksək mədəni xüsusiyyətlərdən bəhs edərkən müasir insan əksər məqamlarda dialoq və dialoq mədəniyyətinə, sosial kommunikasiyaya, yüksək insani təfəkkürə bilik, elm və onların yaratdıqları kommunikativ imkanlara apelyasiya etmək əvəzinə, daha çox istehlakçı, sümürgəçi, gedonist və "özgələşmiş" həyata meyllənir; Halbuki bilik və elmin imkanları və inkişafı sonsuzdur, onun aqressiv istiqamətdə deyil, kommunikativ meyarlar kontekstində inkişafı müasir insanın qarşısında əsas vəzifə olsa da, müasir cəmiyyətlər, "modern insan" bunun təssüf ki, "son məqsəd" kimi öz həyatına tərtbiq etmək mexanizminə malik deyildir.

**Moderinitənin ontoloji problemləri.** Fakt budur ki, indi insanlar, xalqlar, cəmiyyət və millətlər arasında ağlasığmaz bir mübarizə gedir. Bütövlkdə, tarix və onun yaratdığı mədəni atributlara, mədəniyyətə, təhsilə iqtisadi əlçatanlığa, istinad edərək – söykənərək insanlar qarşılıqlı münasibətlərdə mərdlik, sevgi, mərhəmət, qarşılıqlı ehtiram, inam və kommunikasiyanın dərin qatlarında gizlənən hikmətli sirri qabartmaq əvəzinə daha çox antikommunikativ davranışlara – müharibə, münaqişə kin və küdurət kimi xoşagəlməz hallara üstünlük verirlər. Əlbəttə, fəlsəfi problem olaraq bu kimi insani təbiətdən əmələ gələn xüsusiyyətlər barədə, psixologiya, sosial elmlər, tibb, xüsusilə fəlsəfə və tarixin nəzəri problemləri ilə məşgul olan sahələr geniş bəhs etsə də bəşəri "nevrozların"[1], "total psixoloji travmaların" və şüurun bu kimi yanılmalarını birmənalı izah etmək bəzən mümkün olmur. Bu baxımdan bəşəri münasibətlərdən söhbət gedərkən müasir modern insanın önündə daha mükəmməl "resept" olmadığından tarixən filosofların, mütəxəssislərin istinad etdiyi atributlara – mədəniyyət, elm, bilik, etik dəyərlər, hüquq və nizam və s. kimi fundamental anlayışlara – istnad ona görə də həmişə vacibdir. Ola bilsin ki, bizim təfəkkürümüzdə gedən proseslərin səbəblərini də biz a priorilər - də axtarmalıyır, fakt odur ki, tarixi dinamikada müxtəlif sivilizasiyalar, cəmiyyətlər, insan qrupları, fərdlər və identikliklər meydana çıxmışdır. Bütün bunları coğrafiya, dil, din, identiklik, tarixi təkamül və s. amillərlə bağlamaq olar, lakin müşahidələr göstərir ki, həm də "gözə görünməz ideyaların" da bu prosesdə fundamental rolu vardır. İngilis filosofu Bertrand Rasselin təbirincə desək, "müxtəlif adamlar, onların baxış bucaqlarından asılı olaraq, eyni obyektləri fərqli formada görürlər" [5, s. 28]. "Üstün dini ide-

[1] Bax: Z. Freyd Totem və tabu.

yalar", "üstün sivilizasiyalar", mədəniyyətlər, sosial təsisatlara fərqli yanaşmalar, bütün bu fərqli baxış bucaqları ciddi ziddiyyətlər yaradır və bununla da bir növ, "mədəni və bilikli insan" tipi özünü hər şeyin üstününə layiq bilərək başqa sivilizasiyalardan, başqa şəxsiyyətlərdən üstün olduqlarını sübut etmək istəyirlər. Halbuki, biz unuduruq ki, B. Qrassiyanın qeyd etdiyi kimi, "insan unudur ki, mərdlik olmasa müdriklik faydasızdır" [3, s. 7]. İnsanlar unudurlar ki, onlar öz işlərində olan kin, ədavət, nifrət, başqa sivilizasiya, mədəniyyət, dəyərlərə olan dözümsüzlükləri özləri yaradırlar, bizim baxış bucaqlarımız bizə əsl insan tarixini, tarixin "mənası və təyinatını" olduğu kimi deyil, onun idollarını təlqin edir, məhz bu səbəbdən də biz unuduruq ki, "bütü səcdəgah edən heykəltəraş [tanrı, mədəniyyət, sivilizasiya, elm, bilik və moderin dünya – Ş. Z.] deyil, ona sitayiş edənlər", yaradırlar [3, s. 7].

Beləliklə, sonda nəticə əvəzi olaraq qeyd edə bilərik: moderin cəmiyyət anlayışı tarixin bütün dövrləri üçün müasirlik kimi qavranılsa da müsir modern cəmiyyətin problemləri daha kütləvi və geriyədönməzdir. Bu isə şübhəsiz müasir sivilizasiyanın ən ciddi problemlərindəndir. Yuxarıda aparılan analizlərdən də aydın etmək mümkündür ki, modern cəmiyyətin sivilizasion tarixi tam halında fəlsəfi, elmi, sosial-psixoloji, mədəni formada, nəzəri anlamda refleksiya edilərkən "onun mübarizlər tarixi" [ A. Toynb] kimi dərk edilməsi faktı tarixin yaratdığı həm də tarixi yaddaşdan gəlir. Tarixi yaddaş məhz sivilizasiyanı inkişafa mədəni əlaqələrə, dialoq və kommunikasiyaya yönləndirdi kimi, onun "moderin" problemlərini də qabartmaqdadır. Ona görə də modern cəmiyyətdə kommunikasiya və dialoq mədəniyyətindən bəhs edərkən unuda bilmərik ki, tarixi keçmişə "ölü" və "keçmiş" kimi baxmaq doğru baxış deyildir və müasir modern cəmiyyətin inkişaf prinsipləri tarixin səlis interpretasiyası bacarığından gəlir. Bu onu sübut edir ki, tarix daima müstəqil frazalarda, lakin oxşar şəkildə "təkrar" olunan canlı keçmişdir. O, özündə böyük kommunikasiya və dialoq oxunu mədəni atılışı təsbit edir.

Yəni söhbət ondan gedir ki, tarix bizim üçün hüdudsuz interpretasiya yaradan axındır, orada baş verənlər daima bizim idrakımızı özünə cəlb edir, bu "modern" olanla, "mifik" olanın problemi kimi daima "gündəlik məsələlərdə" də ziddiyyətləri daha da avovlandıra bilir. Lakin bu heç də, o demək deyil ki, insan nəsli mədəniyyətdən, etika və humanizmdən kommunikasiya və dialoq prosesindən, birgəyaşayış və vəhdət anlayışlardan imtina etsin. Bertran Rasselin təbirincə desək, "dünyada qarşısıalınmaz bütün ziddiyyətlər bizim Kainata baxışımızın fraqmentlər səviyyəsində olunmasından yaranır və Hegelin düşüncəsinə görə bütün bunları məntiqi yolla sübut etmək olar. Hegel öz mühakiməsinə davam edərək deyir ki, əgər biz Kainata Alllahın ona baxdığı kimi, yəni bütüöv bir tamlıq kimi baxsaq, məkan, zaman, materiya və şər – bütün ziddiyyətlər və çəkişən tərəflərin hamısı – hökmən yoxa çıxacaqdır və biz onların yerinə əbədi, mükəmməl və dəyişməz ruhani bilik alacağıq" [5, s. 135]. Bu insan zəkasının ən böyük arzusu, təfəkkürümüzün əbədi axtarışıdır, bilik mükəmməl və anlayan insan tipinin, yaradıcı və kommunikativ gələcək insan tipinin yaradıcı mehvəri olmalıdır.

Sonda bir daha qeyd edək ki, müasir modern cəmiyyətdə baş verən ziddiyyətlər sivilizasiyanın "xarakterik xüsusiyyətləri" olsa da, "modern" İnsan onları dəf etməkdə məhz biliyə, elm və fəlsəfənin yaratdığı dəyərlərə, tarixi dinamikanın əsas mehvəri hesab olunan mədəniyyət və humanizm prinsiplərinə, dialoq və dialoq mədəniyyətinə söykənərək həll edə bilər.

**Ədəbiyyat siyahısı**


1. Bauman Zygmunt. "Moderinlik və Mübhemlik" [Ayrıntı yayınları. İstanbul Topkapı/Zeytinburnu] tərcümə. İstanbul, 2020, 400 s.
2. Freyd Z. Totem və tabu. Bakı: "Qanun", 2016, 208 s.
3. Qarsian B. Kamillik elmi. Bakı: "Qanun", 2011, 112 s.
4. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Bakı: "Elm və təhsil", 2019, 200 s.
5. Rassel B. Fəlsəfənin problemləri. Bakı: "Qanun", 2017, 168 s.
6. Yaspers K. Tarixin mənası və təyinatı, Bakı: "Zəkioğlu", 2008, 764 s.
7. Zeynalov Ş. "Dialoq mədəniyyəti və müasirlik". Bakı: "Avroba", 2020, 330 s.

**Summary**

**Sholat Zeynalov**

**The problem of knowledge, communıcatıon and dıalogue ın modern socıety: war and socıal contradıctıons**

The work is devoted to the theoretical interpretation of social, political, cultural, ethnic, military, etc. contradictions in the society of modernity and knowledge in the context of the culture of communication and dialogue.

According to the author, although the contradictions arising in the system of modern relations, and theoretically characterized as problems “stemming from the nature of civilization”, it is important to consider them as vital issues “on the agenda”, and attempts to solve them should be the strategic goal of modern society.

Although the problem under consideration has historically been in the center of attention in the history of philosophy, especially in Western theoretical thought, in the context of the main object and subject of theoretical interpretations, such as social, political, economic, geographical or even phenomenological, metaphysical and cognitive problems, their constant comprehension from the dialogical aspect in modern society is a necessity. This is also one of the factors determining the relevance of the article.

***Keywords:*** *Modern society, "the agenda", social contradictions, war, knowledge, communication.*

**Резюме**

**Шолат Зейналов**

**Проблема знания, коммуникации и диалога в современном обществе: война и социальные противоречия**

Работа посвящена теоретической интерпретации социальных, политических, культурных, этических, военных и т. д. противоречий в обществе модерна и знаний в контексте культуры коммуникации и диалога.

По мнению автора, хоть и противоречия, возникающие в системе современных отношений, и в теоретическом представлении характеризующиеся как проблематика, “проистекающая из природы цивилизации”, важно рассматривать их как жизненно важные вопросы, “находящиеся на повестке дня”, и попытки их решения должны быть стратегической целью современного общества.

Хотя рассматриваемая проблема исторически находится в центре внимания в истории философии, особенно в западной теоретической мысли, в контексте основного объекта и предмета теоретических интерпретаций, таких как социальная, политическая, экономическая, географическая или даже феноменологическая, метафизическая и когнитивная проблема, их постоянное осмысление с диалогического аспекта в современном обществе является необходимостью. Это также один из факторов, определяющих актуальность статьи.

***Ключевые слова:*** *Современное общество, «задачи на повестки дня», социальные противоречия, война, знания, коммуникация.*